# Mingəçevirdə Şəhər Günü qeyd edildi



***Respublikanın gənc şəhərlərindən biri kimi tanınan Mingəçevirin şəhər statusu almasından 73 il keçir. Sakinlər həmin günü təntənə ilə qeyd etdilər. Şəhər icra hakimiyyətinin hazırladığı tədbirlər planına uyğun təşkil edilən tədbir ulu öndərin Heydər Əliyev Mərkəzinin önündə ucaldılmış abidəsi qarşısına gül dəstələri qoymaqla başlandı.***



Sonra tədbir ŞİH-in müşavirə zalında davam etdirildi. Şəhər ictimaiyyəti nümayəndələrini və əmək veteranlarını salamlayan icra hakimiyyətinin başçısı İlham İsmayılov öncə Şəhər Günü münasibətilə iştirakçılara təbriklərini bildirdi. Şəhərin quruculuğunda fəal iştirakı olan insanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi təklif etdi. Mingəçevirin yaranma tarixindən, burada xüsusi xidmətləri olan insanların fəaliyyətindən bəhs edən icra başçısı qeyd etdi ki, Mingəçevir SES-in, eləcə də Mingəçevir İES-in inkişafında xüsusi xidmətləri olan ulu öndərimiz Heydər Əliyev şəhər sakinlərinə böyük töhfələr bəxş etmişdir. Bu gün Mingəçevir SES, eləcə də İstilik Elektrik Stansiyası Mingəçeviri respublikanın energetika paytaxtı kimi tanıdır. Burada yüzlərlə mingəçevirli öz əməkləri ilə həyatımıza işıq saçır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində hər iki enerji müəssisəsində əsaslı şəkildə yenidənqurma işləri aparılmış və enerji hasilatı əvvəlki illərə nisbətən xeyli artırılmışdır. Bununla yanaşı, Mingəçevir turizm şəhəri kimi də diqqəti cəlb edir. Burada fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlar şəhərin inkişafında, yüksəlişində yaxından iştirak edirlər. Qeyd etmək yerinə düşər ki, bu il Mingəçevirdə 30 küçə əsaslı təmirdən çıxarılmış, 9 məhəllədə yenidən işıqlanma sistemi qurulmuşdur. 39 binanın əsaslı təmir işləri isə uğurla davam etdirilir. Şəhərdə yeni parklar salınır, xiyabanlar yaradılır, küçələr yeni asfalt örtükləri ilə bəzədilir. Tarix muzeyinin qarşısında, eləcə də Qələbə meydanında yeni fontanların quraşdırılması, şəhərin Gəncə şossesi tərəfdən giriş hissəsinin müasir formaya salınması buranın gözəlliyini daha da artırır.

Ötən il 50-yə yaxın binanın fasadı və dam örtüyü yeniləndiyindən bu il həmin istiqamətdə işlərə də diqqət artırılıb. Xüsusilə, şəhərin bütün



məhəllə və küçələrində işıqlandırma sistemlərinin müasir formada quraşdırılması, bağ massivlərində 19 küçəyə asfalt örtüyünün salınması, şəhərdə ağacların suvarılması sisteminin qaydaya salınması sakinlərin razılığına səbəb olmuşdur. Buna görə də bu işləri ilin sonuna qədər davam etdirərək, yeni xiyabanlar salmaq planlaşdırılır.

Bu məqsədlə yeni salınmış Nizami parkının daha da genişləndirilməsi, 20 Yanvar küçəsindən Nəsimi parkına kimi olan ərazidəki yaşıllıqların sayının artırılması nəzərdə tutulur.

ŞİH başçısı şəhərdə işsizliyin aradan qaldırılması məsələsinə də toxundu. Bildirdi ki, sovet dövründən qalmış müəssisələrdə yenidənqurma işləri apararaq iş ahənginin bərpa olunmasına, burada sənaye parklarının sayının artırılmasına çalışırıq.

Xüsusilə, Mingəçevir Sənaye parkı ərazisində yeni fabrikin inşa olunması, Regenerat zavodu ərazisində müasir tələblərə cavab verən sənaye parkının salınması diqqət mərkəzindədir. Artıq bu istiqamətdə müəyyən hazırlıq işləri görülür.

Tədbirdə əmək veteranlarından Nəriman İsrafilov, Pənah Qurbanzadə və başqaları çıxış edərək bir sıra təkliflər söylədilər.

Şəhər icra hakimiyyətinin başçısı əmək veteranlarına Mingəçevirin bu günündən və gözəlliyindən bəhs edən foto bukletlər və digər suvenirlərdən ibarət hədiyyələr təqdim etdi.

Sonra Mingəçevirdə aparılan abadlıq-quruculuq işləri ilə yerində tanışlıq üçün əmək veteranları şəhərin gəzintisinə dəvət edildilər. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovun, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə həyata keçirilən gəzinti Gəncə şossesi tərəfindən Mingəçevirə giriş qapılarının müasir formaya salınmasına baxışla başlandı. Tədbir iştirakçıları sonra Azərbaycan İES yaşayış massivindəki Abdulla Şaiq küçəsinin 5–11 nömrəli yaşayış binalarının önündə salınmış nümunəvi məhəllədə oldular. Burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdı. Yeni ağaclar əkilmiş, söhbətgahlar quraşdırılmış, oturacaqlar qoyulmuşdur. Məhəllə ətrafındakı binaların əsaslı təmiri də diqqəti cəlb edirdi. Binaların fasadları qaydaya salınmış, giriş hissələrinə seyf qapıları qoyulmuş, plastik pəncərələrlə formaya salınmışdır.

Əmək veteranları və ictimaiyyət nümayəndələri Sahil parkında aparılan yenidənqurma işləri ilə də tanış oldular. Onlar həm də idmançıların Kür çayı üzərində avarçəkmə üzrə yarışların şahidi oldular. Şah İsmayıl Xətai küçəsindəki 135-ci məhəllədə aparılan quruculuq işləri də xüsusi zövqlə həyata keçirilmişdir. Burada sakinlərin arzusunu nəzərə alaraq, asfaltlanma işləri, müasir səkilərin qaydaya salınması, bardürlərin yenilənməsi zövqlə görülmüşdür. Məhəllə ərazisi boyunca yeni söhbətgahların, oturacaqların qoyulması sakinlərin ürəyincə idi. Ona görə də sakinlər görülən işlərə görə şəhər rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Respublikanın tanınmış inşaatçısı İslam İslamzadənin rəhbərliyi ilə ərsəyə gətirilən Mingəçevir şəhəri bu gün beləcə inkişaf edir, tərəqqiyə doğru irəliləyir, 73 yaşını qeyd edir. Bayramın mübarək, doğma Mingəçevir!

Həmin gün teatr meydanında Mingəçevirin şəhər statusu almasının 73-cü ildönümünə həsr edilmiş bayram konserti təşkil olundu.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***